**Aylar Nofəl oğlu QASIMLI**
Azərbaycan Dövlət Aqrar Universiteti, doktorant
E-mail: agasimli@internet.ru

## AQRAR SAHƏNİN İNNOVATİV İNKİŞAFININ XÜSUSİYYƏTLƏRİ

**Xülasə**

Aparılmış tədqiqatın məqsədi aqrar sahənin innovativ inkişafına təsir edən və aqrar sahənin innovativ inkişafının təsir etdiyi amillərin təhlilindən, innovativ inkişafın effektiv yollarının təhlilindən və onun stimullaşdırılmasına yönəl-miş mexanizmlərin öyrənilməsindən ibarətdir. Tədqiqat işində statistika metodu əsasında statistik göstəricilər veril-mişdir və diaqramlar "Word", "Excel" proqramları vasitəsilə qurulmuşdur. Tədqiqat işində aqrar sahənin innovativ in-kişafında xarici ölkələrin təcrübəsi haqqında məlumat verilib, bu sahədə innovasiya tətbiqinin qeyri-neft sektorunun inkişafında rolu qeyd olunub və innovativ inkişafın stimullaşdırılması problemləri işıqlandırılıb. Aqrar sahənin inno-vativ inkişafının xüsusiyyətlərinin araşdırılması əsasında müəyyən edilmişdir ki, elektron sistemlərin yaradılması, vergi güzəştlərinin təmin edilməsi, lizinq vasitəsilə yeni texnikanın alınma prosesinin asanlaşdırılması ən əsas məsə-lələrdən biridir.

**Açar sözlər:** aqrar sahə, innovativ inkişaf, innovasiya fəaliyyəti, elmi tədqiqat, maliyyə vəsaitləri.

**UOT:** 338.43
**JEL:** O13, O31, Q16
**DOI:** https://doi.org/ 10.54414/ YAFT5541

**Giriş**

Müasir dövrdə əhali sayının artması, dünya bazarlarına yeni rəqabətqabiliyyətli ixracyönümlü məhsulların istehsalına başlanması, müəssisələrin iqtisadi səmərəliliyinin yüksəldilməsinin vacibli-yi, istehsal prosesində istifadə olunan köhnəlmiş texnologiyaların yeni texnologiyalarla əvəz edil-məsi və diqər problemlərin həll edilməsi müxtəlif sahələrdə, o cümlədən aqrar sahədə innovasiyala-rın tətbiqinin təşkil edilməsinə ehtiyac yaradır. Bu səbəbdən qeyd etmək mümkündür ki, aqrar sahənin inkişafında innovativ inkişafın rolu inkaredilməzdir. İnnovasiyaların geniş tətbiqinə nail ol-maq üçün yüksəkixtisaslı işçilərin innovativ fəaliyyətə cəlb edilməsi, xarici investisiyaların innova-tiv sahəyə cəlb edilməsi üçün əlverişli şəraitin yaradılması, innovativ inkişafda vacib olan infra-strukturun yaradılması, elmi tədqiqatların aparılması üçün şəraitin yaradılması, müəssisələrin inno-vativ fəaliyyətdə iştirak etməyə cəlb edilməsi kimi məsələlər əhəmiyyət kəsb edir. Xarici təcrübə-yə əsasən aqrar sahənin innovativ inkişafında dövlət tərəfindən fermerlərə vergi güzəştlərinin tət-biqi, elmi tədqiqatların keçirilməsinə maliyyə vəsaitin ayrılması, innovativ inkişafa yönəlmiş proqramların təşkil edilməsi kimi mexanizmlər vacibdir.

**İnnovativ inkişafın əsas xüsusiyyətləri.** İnnovativ inkişaf elə bir prosesdir ki, o özündə elmi-texniki tərəqqini, idarəetmə prosesinin aparılmasının yeni üsullarını, yeni növ texnika və ya tex-nologiya vasitəsilə məhsulların istehsalını, özündə yeni xüsusiyyətləri birləşdirən məhsulların is-tehsalına nail olunmasını və başlanmasını, yeni mütərəqqi məhsulların bazara çıxarılmasının təşkil edilməsini və onların satışına başlanmasını, yeni ideyaların irəli sürülməsini özündə əks etdirir. Qeyd olunmuş amillər əsasında yeni istehsal vasitələrinin, yeni mütərəqqi məhsulların istehsalının və onların tətbiqinin meydana gəlməsinə nail olmaq mümkündür. İnnovativ inkişafın əsas xüsu-siyyətlərindən biri odur ki, itkiləri azaltmaq üçün, məhsuldarlığı artırmaq üçün, iqtisadi artım və inkişafı təmin etmək üçün köhnə istehsal vasitələrindən imtina edib, yeni istehsal vasitələrinə ke-çid zəruridir. Uğurlu in-

novativ inkişafı təmin etmək üçün zəruri infrastruktur təşkil olunmalı, meydana gələn yeni innovasiyalar haqqında məlumat öyrənmək üçün informasiya sistemləri yara-dılmalı, innovativ inkişafın perspektiv tərəfləri müəyyən olunmalıdır. İnnovativ inkişafı sürətlən-dirmək üçün innovasiya sahəsində motivasiya sisteminin təmin olunması vacibdir.

Aqrar sahədə tətbiq edilən innovasiyaların öz xüsusiyyətləri mövcuddur. Aqrar sahədə effektiv innovasiyalaşmanı təmin etmək üçün intensiv inkişaf yoluna keçid zəruridir. İntensiv kənd təsər-rüfatının xüsusiyyətləri: elmi-texniki tərəqqiyə əsaslanan elmyönümlü inkişaf növüdür, yeni nəsil aqrotexnologiyaların tətbiqini tələb edir, yüksək məhsuldarlıq verən bitki sortlarının və heyvan cinslərinin yetişdirilməsi təmin olunmalıdır, istehsal gücü yüksək olan kombayn və diqər kənd tə-sərrüfatı texnikasının tətbiqi təşkil olunmalıdır, yüksəkixtisaslı mütəxəssislərin cəlb edilməsini tə-ləb edir [1 s.213, 235-238].

Aqrar sahənin innovativ inkişafına neqativ təsir göstərə bilən amillər bunlardır: aqrar sahəni innovativ texnologiyalarla təmin etmək üçün maliyyə vəsaitlərin kifayət qədər olmaması, sahənin investisiya cəlbediciliyinin kifayət qədər yüksək olmaması, lazım olan innovativ texno-logiyalar haqqında məlumatın olmaması, innovasiyalaşmaya yönəlmiş layihələrin tərtib olunma-sının təşkil edilməməsi. İnnovativ inkişafı sürətləndirmək üçün innovasiyaların nə dərəcədə tət-biq olunduğunu qiymətləndirmək, normativ baza yaratmaq, məlumat sistemini təmin etmək va-cibdir. Effektiv innovativ siyasət aparmaq üçün sahəyə cəlb edilən maliyyə vəsaitin mənbələri təhlil olunmalı, maliyyə vəsaitlərinin həcmi və innovasiya fəaliyyətini həyata keçirmək üçün tə-ləb olunan iştirakçıların sayı müəyyən olunmalıdır. Bazarlara girişi asanlaşdırmaq həmçinin in-novativ inkişafın təmin dilməsində ən vacib məsələlərdən biridir. İnnovativ fəaliyyət üzrə layi-hələrin təşkil edilməsi ən prioritet məsələlərdən biridir, layihələrin keçirilməsi nəticəsində aqrar sahə daha məhsuldar və səmərəli funksionallıq göstərir. İnnovasiyaların tətbiq olunmasında ən zə-ruri elementlərdən biri elmi tədqiqatların aparılması və məlumat bazasının yaradılmasıdır. Aparı-lan elmi tədqiqatlar əsasında yeni məhsullar yaranır, informasiya texnologiyaları vasitəsilə isə is-tehsalçılar istehlakçılara yeni məhsul haqqında məlumat ötürür. İnnovasiyalaşmanın gələcəkdə in-kişaf perspektivlərini müəyyən etmək üçün innovasiyaların sahədə tətbiq potensialını araşdırmaq zəruridir. İnnovasiya potensialına müxtəlif amillər təsir edir: maliyyə resurslarının vəziyyəti, el-mi-texniki baza, insan resurslarının innovasiya fəaliyyətində iştirak etmək üçün motivasiya möv-cudluğu. İnnovativ texnologiyalardan istifadəsinin nəticələri özünü texniki və iqtisadi baxımdan göstərir. Texniki baxımdan innovasiyalar istehsal prosesində yeni üsulların istifadəsinə yol açır, iqtisadi baxımdan isə bazarları yeni məhsullarla təmin etməklə məhsulların çeşidini artırır, səmə-rəliliyi artırır. İqtisadi səmərəliliyin yüksəldilməsi innovasiyaların tətbiqi ilə bağlıdır və bu səbəb-dən qeyd etmək mümkündür ki, səmərəlilik innovasiya fəaliyyəti nəticəsində alınan yeniliklərlə bağlıdır. Bu səbəbdən innovasiya sahəsinə mənfi təsir göstərən amillərin təsirinin azaldılması ən prioritet istiqamətlərdən biridir.

Həmçinin innovasiyalar aqrar sahədə ixrac potensialını artırmaqla xarici ticarətin inkişafına müs-bət təsir göstərir. İnnovasiyaların ticarət münasibətlərinin inkişafında, dünya bazarına çıxışda olan roluna əsaslanaraq məhsulların ixrac qabiliyyətinin və innovativ inkişaf arasında olan asıllığı qeyd etmək mümkündür. İnnovativ inkişafın səviyyəsi kifayət qədər yüksək olan müəssisələr, dün-ya bazarına çıxış imkanına malikdir və bununla onlar yüksəkkeyfiyyətli məhsulları ixrac etməyə qadirdir. Bu onunla izah olunur ki, müəssisələr innovativ fəaliyyətin stimullaşdırılması hesabına daha çox ixracqabiliyyətli məhsulların, o cümlədən yeni xüsusiyyətlərə malik olan məhsulları is-tehsal etmək imkanına nail olur. Bu səbəbdən müəssisələrə ixrac potensialının yüksəldilməsi məqsədilə innovasiyaları tətbiq etmək və innovativ fəaliyyətdə iştirak etmək imkanını vermək vacibdir. İstehsalçılar arasında olan yüksək rəqabəti nəzərə alaraq istehsalçılar öz xüsusiyyətlərinə görə diqər məhsullardan fərqlənən məhsulları istehsal etməyə çalışır, nəticədə onlar dünya bazar-larında üstünlük əldə etmək imkanına malik olur [2 s.148-150].

Həmçinin istehlakçıların kənd təsərrüfatı məhsullarına olan tələbatı ödəmək üçün innovasiya-lardan istifadə etməklə məhsulların istehsal həcminin yüksəldilməsi əhəmiyyətlidir. İnnovasiya fəa-liyyətinin müəyyən xüsusiyyətləri mövcuddur və bu xüsusiyyətlər innovasiya sahəsinin inkişafın-da önəmlidir. Yeni avadanlıqların istifadəsinə başlanması, elmi tədqiqatların keçirilməsini təşkil etmək üçün əlverişli mühitin yaradılması, istehlakçılara satışda mövcud olan innovativ məhsul haqqında məlumat vermək üçün marketinq fəaliyyətinin təşkil edilməsi kimi xüsusiyyətləri qeyd etmək mümkündür. İnnovativ inkişaf müəssisələr üçün üstünlük qazanmaqda ən vacib amillərdən biridir. İnnovasiya hesabına əhali üçün yeni imkanlar yaranır, müəssisələr dünya bazarına çıxış imkanlarını əldə edir, dayanıqlı inkişaf üçün şərait yaranır. İnnovasiya vasitəsilə yeni istehsal im-kanları yaranır və bu səbəbdən kənd təsərrüfatı müəssisələri üçün innovativ inkişafa nail olmaq üçün strategiyalar qurulmalı, innovasiyaların düzgün istifadəsini təmin etmək üçün planlar qu-rulmalı, perspektiv inkişaf istiqamətləri müəyyən olunmalı, yeni məhsul və xidmətlərin meyda-na gəlməsi üçün nəzərdə tutulmuş fəaliyyət təşkil edilməlidir.

İnnovativ inkişafa yönəlmiş strategiya irəliləyişlərə gətirib çıxarmalıdır və iqtisadi artıma töh-fə verməlidir. İnnovativ inkişaf strategiyasının qurulması üçün risklərin azaldılması məqsədilə fəaliyyət göstərən sistem və maliyyə resurslarının adekvat bölgüsü təşkil olunmalıdır. Həmçinin innovativ inkişaf elə bir prosesdir ki, o müxtəlif sahələrin inkişafının təmin edilməsində rol oy-nayır və biliyin iqtisadi, texniki inkişafda geniş istifadəsinə gətirib çıxarır [3 s.119-121].

**Aqrar sahədə istifadə olunan innovativ sistemlər.** Aqrar sahənin innovativ inkişafının təmin edilməsi məqsədilə yaradılmış “Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi” dövlət tərəfindən kənd təsərrüfatının inkişafına yönəldilmiş dəstək vasitələrindən biridir və bu sistem fermerlərin işini asanlaşdırmağa kömək edir. EKTİS-ə müxtəlif altsistemlər daxildir və burada subsidiyaların verilməsi, heyvandarlığın aparılması, kənd təsərrüfatı sahəsinə daxil olan müəyyən torpaqların isti-fadə məqsədilə verilməsi kimi altsistemləri qeyd etmək mümkündür. Həmçinin EKTİS-in idarə edilməsinin təmin edilməsi üçün nəzərdə tutulmuş infrastruktur mövcuddur. İnfrastruktura proq-ram təminatı, ödəniş əməliyyatlarını aparmaq üçün modul və diqər elementlər daxildir. Aqrar sahənin inkişafında lizinq fəaliyyəti önəmlidir vəbu səbəbdən lizinq sahəsini təkmilləşdirmək məqsədilə dövlət tərəfindən müəyyən islahatlar aparılır. Məsələn üçün kənd təsərrüfatı texnikası, damazlıq heyvanlar və ya gübrə, pestisidlər fermerlərin istifadəsinə lizinq vasitəsilə verilə bilər [4]. Həmçinin fermerlərin işini asanlaşdırmaq məqsədilə “Elektron Lizinq” xidmətinin təşkil edil-məsi vacibdir ki, bu xidmət fermerlərin kənd təsərrüfatı texnikasının alınma prosesini sadələşdi-rir və vaxta qənaət etməyə imkan yaradır [5].

**İnnovativ inkişafa təsir edən və innovativ inkişafın təsir etdiyi amillərin təhlili.** Aşağıdakı sxemin sol hissəsində innovativ inkişaf səviyyəsinə təsir edən amillər qeyd olunub, sağ hissə-sind is innovativ inkişafın müsbət təsir etdiyi amillər qeyd olunub.

Həmçinin investisiya kimi amil müxtəlif sahələrin, o cümlədən aqrar sahənin innovativ inki-şafının həyata keçirilməsində zəruri amillərdən biridir, çünki investisiya qoyuluşu kənd təsərrüfatı-nın intensivləşdirilməsi üçün vacibdir, aqrar sahənin inkişafına yönəldilmiş intensiv yanaşma öz növbəsində investisiyaların cəlb edilməsini tələb edən müasir texnikanın tətbiqini zəruri edir.

Aqrar sahənin peşəkar insan resursları ilə təmin edilməsi cari dövrdə ən ciddi problemlərdən bi-ridir və aqrar sahənin peşəkar mütəxəssislərlə təmin edilməsi probleminin həllinin tapılması ona görə vacib məsələdir ki, çünki aqrar sahənin stabil innovativ inkişafının təşkil edilməsi üçün yük-səkixtisaslı işçi qüvvə lazımdır, buna görə yüksəkixtisaslı mütəxəssislərin cəlb edilməsinə diqqət yetirmək zəruridir.

Həmçinin aqrar sahənin problemlərinin həll edilməməsi işçilərdə motivasiyanın itməsinə gətirib çıxarır, buna görə işçilərin aqrar sahənin innovativ fəaliyyətində iştirak etmək mo-tivasiyasının yüksəldilməsinin stimullaşdırılmasına gətirib çıxaran şəraitin yaradılması vacibdir. Aqrar sahənin innovativ inkişafı üçün həm

texnika, texnologiya mütəxəssisləri, həm də maliyyəçi-lər, menecerlər, marketoloqlar və diqər iqtisadi sahələr üzrə mütəxəssislər tələb olunur, texniki iş-çilər yeni istehsal metodlarını ixtira edir, iqtisadi işçilər öz növbəsində sahənin effektiv inkişafı-nı təmin edir [6 p.20-23].




**Sxem**. **İnnovativ inkişafa təsir edən amillər və innovativ inkişafın təsir etdiyi amillər. Müəllif tərəfindən tərtib olunub.**

İnnovasiyaların tətbiqinin müsbət təsir etdiyi amillərdən danışarkən qeyd etmə mümkündür ki, rəqabətqabiliyyətliyinin təmin edilməsinin şərtlərindən biri innovasiyaların tətbiqidir, innovasi-yalar isə öz növbəsində strategiyaların işlənib hazırlanmasını, onların gələcəkdə tətbiq edilməsinin proqnozlaşdırılmasının keçirilməsini tələb edir.

Buna görə müəssisənin rəqabətqabiliyyətliyinin yüksəldilməsi məqsədilə innovasiya tətbiqinin imkanlarını tədqiq edərək istehsal prosesində istifadə olunan resurs həcminin azaldılmasına diqqət yetirmək önəmlidir

Rəqabət qabiliyyətliyinin artırılması vacibliyi innovativ texnologiyalardan istifadə etməyə tələbat yaradır bu da ö növbə-sində istehsal həcminin artırılmasına, innovativ məhsulların istehsalının başlanmasına, yeni isteh-sal üsullarına keçmək üçün şərait yaradır [7].

Aqrar sahənin innovativ inkişafı o səbəbə görə priorite məsələlərdən biridir ki, istehsal edilən məhsulların həcminin yüksəldilməsi qida təhlükəsizliyinin təmin edilməsi üçün vacibdir, istehsal edilən məhsulların həcminin yüksəldilməsi qida təhlükəsizliyinin təmin edillməsi üçün vacibdir, is-tehsal edilən məhsulların həcminin yüksəldilməsi öz növbəsində innovasiya tətbiqi yolu ilə müm-kündür. Qida təhlükəsizliyinin aqrar sahənin innovativ inkişafı yolu ilə təmin edilməsi üçün, müəssisələrin innovativ fəaliyyətdə iştirakı üçün, innovativ istehsal yoluna keçiddə marağın olma-sı üçün şəraitin yaradılması zəruridir.

**Aqrar sahənin innovativ inkişafında xarici təcrübə.** Aqrar sahədə baş verən prosesləri anla-maq və təhlil etmək çox vacibdir, bu prosesləri öyrənmək zərurəti isə xarici ölkələrin təcrübəsinin öyrənilməsini tələb edir. Xarici təcrübədən bəzi ölkələrdə istifadə olunan “şaquli ferma” sistemini missal çəkmək mümkündür. “Şaquli ferma”-nın üstünlüklərindən biri ondan ibarətdir ki, bu növ fermalarda istehsal açıq torpaq sahəsində bitkilərin becərilməsi ilə müqayisədə bir neçə dəfə effek-tivdir [8]. Bu səbəblərə görə xarici təcrübənin tədqiqi vacibdir: aqrar siyasətin keçirilməsi üçün uy-ğun üsulların seçilməsi, kənd təsərrüfatı kompleksinin effektiv inkişaf yollarına gətirib çıxaran yollardan istifadə etməyə başlamaq imkanı.

Kanada və ABŞ kimi ölkələr innovasiyalaşma prosesinin stimullaşdırılmasında geniş təcrübəyə malikdir, bu ölkələrdə dövlət öz növbəsində aqrar sahədə innovasiyaların tətbiqində əhəmiyyətli rola malikdir. Kanadada tətbiq olunan vergi güzəştlərinin hesabına innovasiya

fəaliyyətinin aparıl-masında əlverişli şərait yaradılıb. 2001-ci ildə Kanadada aqrar sahədə risklərin azaldılması üzrə sis-temin yaradılması kənd təsərrüfatı məhsullarının keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi, innovativ inkişaf üçün elmi tədqiqatların keçirilməsi, fermerlərin iş bacarıqlarının genişləndirilmə-si üçün proqramların yaradılması məqsədilə yeni aqrar siyasəti qəbul etməyə qərara alınıb. İnnova-tiv inkişafın təmin edilməsi üçün ölkədə müasir texnologiyaların tətbiqinə və tədqiqatların keçiril-məsinə yönəlmiş proqram mövcuddur. Həmçinin innovativ texnologiyaların bazarlara qısa müddət ərzində çıxarmağa imkan verən proqramlar mövcuddur. İnnovativ sahədə inkişafa nail olmaq üçün, dövlət elmi tədqiqatların keçirilməsi, investisiyaların innovasiya sahəsinə cəlb edilməsi üçün şərait yaradır. Yeni texnologiyaları əldə etmək üçün firmalar laboratoriyalarla münasibət qurmaq-la əlaqə yaradır.

ABŞ-da innovativ inkişafın stimullaşdırılması məqsədilə, innovasiyalaşmanın ən vacib element-lərindən biri olan elmi-texniki tərəqqiyə xüsusi diqqət yetirilir. Elə ştatlar mövcuddur ki, onlar elmi inkişafa əhəmiyyətli məbləğdə maliyyə vəsaiti ayrılır. İnnovativ sahənin tənzimlənməsini həyata keçirən orqanlar innovativ proseslərin təhlilində rol oynamaqla innovasiya sahəsinin stabil funksio-nallığını təmin edir. İstehsal prosesində yeni texnologiyaların tətbiqindən başqa, innovasiyalaşma prosesi yeni idarəetmə üsullarını yaradaraq biznes fəaliyyətinin aparılma yollarına təsir edib [9].

**Aqrar sahənin innovativ inkişafının problemləri.**

Aqrar sahənin stabil funksionallığında innovasiyaların və innovativ inkişafın vacib olduğunu nəzərə alaraq, qeyd etmək vacibdir ki, aqrar sahə-də innovasiyaların tətbiqinə maneə yarada bilən problemlər mövcuddur, bu səbəbdən onlar diqqət mərkəzində olmaqla təhlil edilməlidir. Məsələn üçün bəzi hallarda kiçik sahibkarlıqlar kifayət qə-dər maliyyə resurslarına malik olmadıqda yeni texnologiyaları əldə etmək, onlardan istifadə etmək imkanını itirir və bununla innovasiyaların tətbiqində çətinlik çəkir. İnnovasiya layihələrinin həyata keçirilməsini təmin etmək üçün banklar tərəfindən kredit vermək istəməməsi aqrar sahənin innovativ inkişafının təmin edilməsinin problemlərindən biridir. Həmçinin innovasiya sahəsinə yüksək risklərin mövcudluğu xasdır, bu da innovativ inkişafı zəiflədə bilər və bu səbəbdən risklərin sığorta-lanması dövlətin diqqət mərkəzində durur [10 s.71-72].

**İnnovativ inkişafda dövlət dəstəyi.**

Dövlət innovasiya stimullaşdırılmasında rol oynamaqla bu istiqamətlərə əsaslanaraq innovativ inkişaf təmin edir: innovasiyaların tətbiqi üçün əlverişli mühitin yaradılmasını təşkil etmək məqsədilə proqramların keçirilməsi, innovativ inkişafa nail olmaq üçün innovasiya sahəsində sahibkarlıq fəaliyyəti ilə məşğul olan insan resurslarının dəstəklənməsinə yö-nəlmiş mexanizmlərin yaradılması, tədqiqatyönümlü sahələri maliyyə resursları ilə təmin edən in-vestorlara dəstək üçün şərait yaratmaq və elmi tədqiqat sahəsində çalışan işçilərin əmək məhsuldar-lığının artırılması məqsədilə onların motivasiyasının artırılması, innovativ məhsulları bazarlara çı-xarmaq üçün şəraitin yaradılması, innovativ məhsulların satışını genişləndirmək üçün dünya müəs-sisələri ilə əməkdaşlığın qurulması. Dövlət tərəfindən keçirilən innovasiya siyasətinin stabil funk-sionallığı üçün məqsədlər müəyyən olunmalıdır, innovasiyanın tətbiqini həyata keçirmək üçün planlaşdırma aparılmalıdır [11 s.67-72,92,289].

Kənd təsərrüfatında istifadə olunan yeni texnologiyalar ətraf mühiti qorumaqla ekoloji təhlükə-sizlik təmin edə bilər, bu səbəbdən 2025-ci ildən başlayaraq yeni nəsil suvarma texnologiyalarından istifadə edən əkin torpaq sahələrinə 60 manat əlavə subsidiyanın verilməsi nəzərdə tutulub [12].

**Aqrar sahənin innovativ inkişafı ilə bağlı göstəricilər.**




**Diaqram 1. Satılmış və verilmiş maşınların dəyəri, milyon manat. 2018-2023-cü illər ərzində dövlət tərəfindən güzəştli şərtlərlə kənd təsərrüfatı məhsulları istehsalçılarına kənd təsərrüfatı texnikası və avadanlıqların satışı, milyon manat. Mənbə:** [13].

Diaqram 1-ə əsasən, kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olanlara 2018-2023-cü illər ərzində dövlət tərəfindən güzəştlə verilmiş və satılmış avadanlıqların, texnikanın dəyəri haq-qında məlumat əks olunub. 2018-ci ildə verilmiş və satılmış texnika, avadanlıqların dəyəri 197,9 milyon manat olsada, 2019-cu ildən başlayaraq 2022-ci ilə kimi kəskin azalaraq 2022-ci ildə 31,8 milyon manat olub, amma buna baxmayaraq 2023-cü ildə qalxaraq 38,6 milyon manat olub. 2019-cu ildə verilmiş və satılmış maşınların dəyəri 130,6 milyon manat olsada, 2020-ci ildə bu rəqəm 60% azalaraq 52,3 milyon manata düşüb. Verilmiş illər ərzində ən aşağı dəyər 2022-ci ildə olub, ən yuxarı dəyər isə 2018-ci ildə olub, 31,8 milyon və 197,9 milyon müvafiq olaraq [13].

Diaqram 2-ə əsasən kənd təsərrüfatında çalışanlara verilmiş kreditlər haqqında məlumat əks olu-nub və 3 kredit növü üzrə verilmiş məbləğ göstərilib. Ən çox kredit məbləği “texnika və ava-danlıq təyinatlı kreditlər” kateqoriyası üzrə verilib, “mikrokreditlər” kateqoriyası üzrə verilmiş kre-dit məbləği isə “texnika və avadanlıq təyinatlı kreditlər” kateqoriyası üzrə verilmiş məbləğinə nisbətən təxminən 4 dəfə az olub. Aqrar Tədqiqatlar Mərkəzinin məlumatına əsasən, 2024-cü ilin yanvar sentyabr ayları ərzində aqrar sahədə çalışan şəxslərə müəyyən məbləğdə güzəştlə verilmiş kreditlər, avadanlıq, texnika əldə etmək məqsədilə kreditlər və mikrokreditlər verilib və diaqram-da sadalanmış kredit növləri üzrə verilmiş ümumi kredit məbləği 61,9 milyon manat olmaqla onlar-dan 48,1 milyon manat

texnika və avadanlıq təyinatlı kreditlər, 12,8 milyon mikrokreditlər, 1 mil-yon isə güzəştli kreditlər təşkil edib [14].

**Azərbaycan Respublikasında innovativ fəaliyyətlə məşğul olan müəssisələr.** Azərbaycan Respublikasının ərazisində innovativ fəaliyyətdə iştirak edən müəssisələr mövcuddur və onlardan biri ekoloji təmiz məhsulları istehsal edən “A AGRO MMC” şirkətidir. Bu şirkət tərəfindən isteh-sal olunan müxtəlif innovativ avadanlıq vasitəsilə istehsal olunur və bu müəssisənin məqsədlərin-dən biri əhalini sağlam məhsullarla təmin edilməsidir. “A AGRO MMC” şirkəti iri şirkət olmaqla kənd təsərrüfatı məhsulları üzrə müxtəlif prosesləri əhatə edir: becərilmə, istehsal və emal proseslə-rin təşkil edilməsi, məhsulların satışının təşkil edilməsi [15].




**Diaqram 2. 2024-cü ilin yanvar-sentyabr ayları ərzində aqrar sahədə çalışanlara güzəştlə verilmiş kreditlər, milyon manat. Mənbə:** [14].

Aqrar sahənin innovativ inkişafının təmin edilməsi həm də ona görə vacibdir ki, o aqrar sahənin stabil inkişafını təmin etməklə qeyri-neft sektorunun inkişafında rol oynayır. Qeyri-neft sektorunun inkişafının təmin edilməsində aqrar sahənin inkişafı ən vacib istiqamətlərdən biridir çünki qeyri-neft sahələrinin inkişafı hesabına ölkələr neft asıllığını azaldır [16 s.82].

**Nəticə**

Aparılmış təhlil nəticəsində müəyyən olunub ki, aqrar sahənin inkişafının təmin edilməsi məqsə-dilə fermerlərə güzəştli şərtlərlə kənd təsərrüfatı texnikasının, kreditlərin verilməsi həyata keçirilir.

Həmçinin fermerlərin işini asanlaşdırmaq məqsədilə subsidiyaların verilməsi, lizinqlə aqrar texnika-nın əldə edilməsi kimi əməliyyatları asanlaşdıran müxtəlif elektron xidmətlər sistemlərinin yara-dılması nəzərdə tutulub. Araşdırma nəticəsində məlum olub ki, aqrar sahənin innovativ inkişafına maneə yaradan problemlər mövcuddur, bunlar sahibkarlıqlar tərəfindən maliyyə vəsaitin olmaması səbəbindən yeni texnika almaq imkanının olmaması, bank təşkilatlarının kredit verməməsi, innova-tiv fəaliyyətin riskli olmasıdır. Aqrar sahibkarlıqların kifayət qədər maliyyə vəsaitlərinin olmaması probleminin dövlət tərəfindən müəssisələrin maliyyə resurslarına çıxış təmin edilməsi məqsədilə faiz dərəcələrinin subsidiyalaşma mexanizmlərinin yaradılması yolu ilə həll edilməsi mümkündür. İnnovasiya fəaliyyətini idarə etmək bacarıqlarını artırmaq məqsədilə proqramların yaradılması öz növbəsində innovasiya sahəsində risk səviyyəsinin azaldılmasına gətirib çıxaracaq.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Quliyev E.A. Aqrar iqtisadiyyat. Bakı: Kooperasiya nəşriyyatı; 2015, - s. 213, 235-238.
2. Hacıyeva A.A. Aqrar sahədə innovasiyaların tətbiqinin genişləndirilməsi. Gəncə: ADAU-nun el-mi əsərləri; 2018 no2, -s. 148-150.
3. Rəhimova M.F. Aqrar sferada innovativ resurslardan istifadənin əsas xüsusiyyətləri. Gəncə: ADAU-nun elmi əsərləri; 2019 no4, -s. 119-121.
4. https://e-qanun.az/framework/43940
5. https://www.agro.gov.az/az/news/ayaz-qdrov-elektron-aqrolznq-sstem-fermerlrn-n-asanladiracaq
6. Shanina, L.V. Highly skilled personnel as a governing factor of the rural economy innovative development. Applied economic research;

2015 no4(8), -s. 20-23.(İn Russ.) https://cyberleninka.ru/article/n/vysokokvalifitsirovannye-kadry-reshayuschiy-faktor-innovatsionnogo-razvitiya-agrarnogo-sektora-ekonomiki
7. Dzhavadova S.A. Innovations in the agricultural sector and their impact on competitiveness. Ekonomicheskie issledovaniya i razrabotki. Nauchno issledovatel'skii zhurnal, Economic develop-ment research journal.(İn Russ.) http://edrj.ru/article/11-12-22
8. https://ru.wikipedia.org/wiki/Вертикальная_ферма
9. Zhukenov B. Foreign experiences the innovation development of agro-industrial complex.(İn Russ.) https://cyberleninka.ru/article/n/zarubezhnyy-opyt-innovatsionnogo-razvitiya-agropromyshlennogo-kompleksa
10. Zamanov.F., Əliyev.Ə. Aqrar sahədə kiçik sahibkarlığın innovativ inkişafının müasir problem-ləri. Aqrar sektorda innovativ texnologiyaların inkişaf perspektivləri mövzusunda beynəlxalq elmi konfrans. Lənkəran: 2022, -s. 71-72.
11. Qasımov.F., Əliyev.T., Nəcəfov.Z. Milli innovasiya sisteminin təşkili və idarə edilməsi. Bakı: Elm və təhsil; 2013, -s. 67-72, 92, 289.
12. https://www.agro.gov.az/az/news/020924
13. https://www.stat.gov.az/source/agriculture/
14. https://fed.az/az/aqrar/fermerlere-verilen-guzestli-kreditlerin-meblegi-artib-213085
15. https://www.aagro.az/biz-kimik/haqqimizda/
16. Vəliyeva. S.İ. Kənd təsərrüfatının dayanıqlı inkişafının qeyri-neft ixracının artmasına təsiri. Kənd təsərrüfatının iqtisadiyyatı; 2020 no4 (34), -s. 82.

**Aylar Nofel oglu GASIMLI**
Azerbaijan State Agricultural University, doctoral student
Email: agasimli@internet.ru

## FEATURES OF THE İNNOVATİVE DEVELOPMENT OF THE AGRİCULTURAL SECTOR

**Summary**

The purpose of the conducted research is to analyze the factors affecting and affected by the innovative develop-ment of the agricultural sector, to analyze the effective ways of innovative development and to study the mecha-nisms aimed at its stimulation. İn the research work statistical indicators are given based on the statistical method and diagrams are constructed using the "Word" and "Excel"

programs. The research work provides information on the experience of foreign countries in the innovative development of the agricultural sector, the role of innovation application in this area in the development of the non-oil sector is noted and the problems of stimulating innovative development are highlighted. Based on the study of the characteristics of the innovative development of the agricultural sector, it was determined that the creation of electronic systems, provision of tax benefits, and facilitation of the process of acquiring new equipment through leasing are among the most important issues.

**Keywords:** agricultural sector, innovative development, innovative activity, scientific research, financial resources.

**Айлар Нофель ГАСЫМЛЫ**
Азербайджанский Государственный Аграрный Университет, аспирант
E-mail: agasimli@internet.ru

**ОСОБЕННОСТИ ИННОВАЦИОННОГО РАЗВИТИЯ АГРАРНОГО СЕКТОРА**

**Резюме**

Целью проведенного исследования является анализ факторов, влияющих и затрагиваемых инновацион-ным развитием аграрного сектора, анализ эффективных путей инновационного развития и изучение механиз-мов, направленных на его стимулирование. В исследовательской работе приведены статистические показатели на основе статистического метода и построены диаграммы с использованием программ “Word” и “Excel”. В исследовательской работе представлена информация об опыте зарубежных стран в инновационном развитии аграрного сектора, отмечена роль применения инноваций в этой сфере в развитии ненефтяного сектора и ос-вящены проблемы стимулирования инновационного развития. На основе изучения особенностей инновацион-ного развития аграрного сектора определено, что создание электронных систем, предоставление налоговых льгот, урощение процесса приобретения новой техники через лизинг является одной из важнейших задач.

**Ключевые слова:** аграрный сектор, инновационное развитие, инновационная деятельность, научные иссле-дования, финансовые средства.

**Daxil olub: 19.06.2025**